Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Nağıla bənzər eşqin bəxtsiz övladı

## Azərbaycanın ilk energetiki İsgəndər Rzazadənin taleyi də işıqlı olmayıb

**1870-ci ildə İrandakı ağır güzəranından bezmiş Cabbar kişi baş götürüb Şimali Azərbaycana gəlir. Bir müddət Bakıda ara həkimi kmi çalışan Cabbar daha sonra üz tutur Kazana. Burada tale onun üzünə gülür. Lap nağıllardakı kimi. Xoşbəxtlikdən bu, nağıl yox, həqiqət olur. Belə ki, ara həkimi olan Cabbar Kazanda çox varlı bir ailənin qızını - Gülcamalı sağaldır. Uzun sürən xəstəlikdən canı qurtulan qız həkimə vurulur. Atası Ömər ağa da bu sevdanın əleyhinə çıxmır, əksinə, 1893-cü ildə Cabbarla Gülcamala bir toy edir ki, səsi-sorağı bütün mahala yayılır.**

Toydan sonra Ömər ağa qızı ilə kürəkənini bal ayına göndərir. Onlar Sankt-Peterburq, Tiflis, Yaroslavl, Kolomna şəhərlərini gəzirlər. 1894-cü ildə Ömər ağaya xəbər gəlir ki, bir oğlan nəvəsi dünyaya gəlib.

Cabbar bu xoş günündən ana-atasını da hali etmək üçün ailəsi ilə üz tutur Tehrana. Tehranda Cabbar həkimin sorağı tez bir zamanda Nəsrəddin şahın qulağına çatır və şah onu sarayına dəvət edir. 1897-ci ildə saray həkimi olan Cabbarın üzünə tale bu dəfə də gülür, ikinci oğlu dünyaya gəlir. Adını İsgəndər qoyurlar. İki il sonra ailənin bir qızı da olur. Cabbar da gah Tehranda, gah da Rəştdə həkimliyini edir, xoşbəxtlikdən xəstələri də şəfa tapır. Burada günü-güzəranı xoş kecən həkim nədənsə 1903-cü ildə yenidən Bakıya üz tutur.

Bakıda bu gənc ailəyə ilk dəstək olan Abdulla Şaiqin böyük qardaşı Mirzə Yusif Talıbzadə olur. Yusif Talıbzadə bu zaman Bakıdakı Realnı məktəbdə müəllim işləyirdi. Elə Cabbarın oğlanları Qafar və İsgəndəri də Realnı məktəbə o qəbul etdirir. İsgəndər 1815-ci ildə 3-cü Bakı kişi gimnaziyasını bitirir. Sonra Petroqrad Politexnik İnstitutunun elektrotexnika şöbəsinə daxil olur. Bu zaman ailədəki maddi çətinliklər onu təhsilini yarımçıq qoymağa vadar edir.

İsgəndər Bakı dəmiryolu stansiyasında işə başlayır. Amma nə yolla olur-olsun ali təhsil almaq arzusu onu tərk etmir və 1919-cu ildə xaricdə təhsil almaq üçün Azərbaycan Xalq Cümhuriyyəti xalq maarif nazirinə müraciət edir. Parlament Rzazadə İsgəndər Cabbarxan oğlunu 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən Fransaya göndərir.

1920-ci ilin əvvəllərində Fransaya yola düşən İsgəndər Fransada ilk olaraq Sorbonna Universitetində fransız dili məktəbində oxuyur. 1920-21-ci illərdə isə Ali Elektrotexnika İnstitutunda oxuyur. Fransada institutu əla qiymətlərlə başa vuran İsgəndər 1922-ci iln əvvəllərində Almaniyaya yola düşür. Burada Darmştadt Ali Texniki Məktəbinə qəbul olur və 1924-cü ildə təhsilini fərqlənmə diplomu ilə başa vurub Berlində işə başlayır.

1925-ci ildə sovet hökuməti İsgəndəri Bakıya çağırır. Vətəndən gələn bu cağırış onun ürəyincə olur. O, öz millətinin qəlbinə-könlünə həmdəm olan bir qızıyla ailə qurmaq və xaricdə aldığı təhsili burada tətbiq etmək arzusu ilə Vətənə gəlir. Amma xəbərsiz idi ki, Vətəndə onu heç də xoş günlər gözləmir...

İsgəndər ilk olaraq Bakıda "Elektrotok" İstehsalat Birliyində mühəndis -layihəçi kimi işə başlayır. İşlərini sahmana saldıqdan sonra 1928-ci ildə Asya adlı bir qızla evlənir.

İlk günlər, aylar, illər ailədə və işdə hər şey öz qaydasında idi. İsgəndər ölkədə ən məsuliyyətli layihələrin həyata keçirilməsində yaxından iştirak edirdi. Şəki, Zaqatala və Xankəndidə elektrik stansiyalarının layihələşdirilməsi və quraşdırılması birbaşa İsgəndərin rəhbərliyi ilə həyata keçirilirdi. O, 2-ci beşillik üçün elektrikləşdirilmə planını hazırlayır.

Bu illər ərzində İsgəndər Rzazadə həm də elm sahəsində özünü sınayır. Azərbaycan Politexnik İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olan gənc kadr Azərbaycan dilində elmitexniki terminologiyanın hazırlanmasına yardımçı olur. 1934-cü ildə SSRİ EA Azərbaycan filialında elmi fəaliyyətini davam etdirən İsgəndərin ailədə də işləri qaydasında idi.

Üç övladının təlim-tərbiyəsi ilə məşğul olan Asyanın qəfil xəstələnməsi İsgəndərin taleyinə yol açan ilk tufandan xəbər verdi. Asya vərəm idi. İsgəndər onu bu bəladan qurtarmaq üçün hər il Qara dəniz sahillərinə gətirir və müalicə etdirirdi. 1937-ci ilin may ayında İsgəndərin Qara dəniz sahilindən Bakıya yazdığı məktubdan bəlli olur ki, artıq heç bir müalicənin əhəmiyyəti yoxdur. Məktubu oxuyarkən hiss olunur ki, İsgəndər onu göz yaşları, ürək yanğısı ilə yazıb: "Sevimli, gözəl Asyamızın vəziyyəti çox ağırdır. Mən konsilium çağırdım, məxsusi olaraq professor Benstoku dəvət etdim. Həkimlər dedilər ki, onu heç yana çıxarmaq olmaz, yoldaca keçinər. Həyatının nəinki günlərini, bəlkə də satlarını yaşayır. Mənim əzizlərim və can-ciyərlərim, bizi necə böyük bədbəxtlik gözləyir".

Asyanın ölümündən bir neçə ay sonra ailəyə ikinci bir ağır zərbə vurulur. 1937-ci ilin iyununda hökumətin yadına düşür ki, İsgəndər cümhuriyyət tələbəsidir. Onu "Sovet Azərbaycanının energetika sənayesindəki bütün pozuculuq-təxribatçılıq işlərinə başçlıq etməkdə" günahlandıraraq həbs edirlər.



**Qərənfil Dünyamin qızı**
**Filologiya üzrə fəlsəfə doktoru,**
**Əməkdar jurnalist**

İlk dindirilmə protokollarından belə bəlli olur ki, Rzazadə İsgəndər Cabbarxan oğlu özünü müqəssir saymır və günahsız olduğunu sübut etməyə can atır. Amma sonra dəhşətli işgəncələr sayəsində bütün "günahlarını" böynuna alır və etiraf edir.

1937-ci ilin 31 dekabrında Rzazadə İsgəndər Cabbarxan oğluna güllələnmə hökmü oxunur.

Bəxtsiz cümhuriyyət tələbəsinin taleyi haqqında tədqiqatçı alim Ədalət Tahirzadə "İsgəndər Rzazadə- Azərbaycanın ilk energetiki" adlı kitabında geniş məlumat verib.